İPƏK YOLU, No.2, 2024, səh.134-138
https://doi.org/10.30546/1810-911X.2024.2.017

# SOMERSET MOEMİN YARADICILIĞINDA İSTEHZA VƏ ONUN XÜSUSİYYƏTLƏRİ

**Günay İsmayılova**

Azərbaycan Universiteti, Bakı, Azərbaycan
e-mail: gunay.ismayilova@au.edu.az

**Xülasə.** Təqdim edilmiş məqalədə ədəbiyyatşünaslıqda ədəbi vasitə hesab olunan istehza modelinin dünya ədəbiyyatında inkişaf tarixi haqqında məlumat verilmiş, o cümlədən ədəbi-bədii nümunələr əsasında istehzanın Somerset Moemin yaradıcılığında təcəssümü prosesi təhlil edilmişdir.

**Açar sözlər:** İstehza, təhkiyəçi, postmodernist, hekayə.

**IRONY AND ITS CHARACTERISTICS IN SOMERSET MAUGHAM'S WORKS**

**Gunay Ismayilova**
*Azerbaijan University, Baku, Azerbaijan*

**Abstract.** The presented article provides information about the development history of the irony model, which is considered a literary tool in literary studies, in the World literature, including how the process of embodiment in Somerset Maugham's work was analyzed on the basis of literary and artistic examples.
**Keywords:** İrony, narrator, postmodernist, story.

**ИРОНИЯ И ЕЕ ХАРАКТЕРИСТИКИ В ТВОРЧЕСТВЕ СОМЕРСЕТА МОЭМА**

**Гюнай Исмаилова**
*Университет Азербайджан, Баку, Азербайджан*

**Резюме.** В статье представлены сведения об истории развития модели иронии, которая считается литературным инструментом в литературоведении, в мировой литературе, включая анализ процесса воплощения иронии в творчестве Сомерсета Моэма на основе литературных и художественных примеров.
**Ключевые слова:** Ирония, рассказчик, постмодернист, рассказ.

## 1. Giriş

Fəlsəfi-estetik kateqoriya kimi istehza inkar, niyyət və nəticə, ideya və obyektiv məna arasında fərqi xarakterizə edərək eramızdan əvvəl V əsrdən başlayaraq gündəlik həyatda təsadüf olunan "ələ salma" yaxud "rişxənd" mənasından ritorik üsula çevrilmiş və termin hüququ qazanmışdır. Antik yunan mənbələrindən birində göstərilir ki, istehza "özünü olduğundan fərqli şəkildə göstərməkdir, yəni nəsnələri əks adlandırmaqdır". İstehzanın ardıcıl şəkildə tətbiqi və istifadəsi əsasında bütöv ədəbi-bədii nümunələr yaradılmışdır.

İstehzanın ritorik şərhi öz əhəmiyyətini XVIII əsrin sonu - XIX əsrin əvvəllərinə qədər qoruyub saxlaya bilmişdir. Lakin artıq Qədim Yunanıstanda Platonun göstərdiyi kimi "Sokrat istehzası" gündəlik istehzanı-rişxəndi başqa istiqamətdə nəzərdən keçirirdi. Burada istehza insan düşüncəsinin mürəkkəbliyini əks edən dərin həyat mövqeyi, xəyali və yalançı biliyin təkzibinə və həqiqətin özünün bərqərar olmasına yönəlmiş dialektik mövqe kimi təqdim olunur. Sokratın "hiyləgərliyi" istehzalı "bilgisizlik"dən başlayır, lakin son nəticə baxımından həqiqəti üzə çıxarmaq məqsədini güdür [5].

Alman romantizmi nəzəriyyəsinin görkəmli nümayəndələrindən biri Zolger göstərirdi ki, istehza dünyanın eyni zamanda reallıq və ideya olmasını təsdiqləyir [4]. Onun fikrincə, ideya

sona qədər reallıqda məhv olur və eyni zamanda reallığı öz səviyyəsinə qədər qaldırır. "İncəsənətin mərkəzi ideyanı elə ideya vasitəsilə aradan qaldırılmasını biz bədii istehza adlandırırıq". Bu baxımdan istehzanın incəsənətin mahiyyətini təşkil etməsi haqqında da fikir yürütmək olar.

S. Moem ədəbiyyatda yeni həqiqətləri kəşf etmək iddiasında olmamış lakin məlum həqiqətlərə öz nöqteyi-nəzərini təklif edərək onları yeni şəkildə təhlil müstəvisinə gətirmişdir. Zahirən bir-birini inkar edən şeylərin paradoksal birliyi S. Moem üçün xarakterik idi. Doğuşdan "orta təbəqə"dən olan S. Moemin istehzasının əsas hədəfi məhz bu təbəqə və onun əxlaqı idi. Dövrün ən varlı yazıçılarından olan S. Moem pulun insan üzərindəki gücünü pisləyirdi. İnsanlardan prinsipcə ona biganə olduğunu, onlardan yaxşı heç nə gözləmək olmadığını iddia edən yazıçı insanlarda xeyirxahlığı və mərhəməti hər şeydən üstün tuturdu.

Ümumiyyətlə yazıçıların istehza hədəfi bir qayda olaraq konkret bir dövrdə, xüsusən də sosial münaqişələr və müharibələr zamanı sosial konkektslə əlaqələndirilir [2]. S. Moem də istehzadan istifadə edərək oxucuları insan təbiəti və ideallardan yapışmağın və ya qeyri-real həyat gözləntilərinin tez-tez məyusedici nəticələri haqqında elmi araşdırılmamış fərziyyələri yenidən düşünməyə sövq edir.

## 2. Obraz və süjet vasitəsilə istehza

Obraz və süjet vasitəsilə S. Moem gözləntilərinin nəticəsini, ümid, məyusluq və illuziya-reallığın dialektikasını araşdırır. Təhkiyəçi ideal və aktual olan arasındakı uyğunsuzluğa diqqət çəkir. İnsanların ola biləcəklərindən və ya olduqlarından başqa bir şey olduğu göstərmək üçün ironiyadan istifadə edir. Məsələn yazıçının "Luiza" hekayəsində baş qəhrəman başqalarından öz məqsədləri üçün istifadə edir, onların özgüvənsizlik hisləri ilə oynayır, lakin özünü mərhəmətli göstərir. Hətta qızının günahı üzündən ölməyinə inandığına görə o, guya onu səxavətlə bağışlayır: "*She died gently forgiving Iris for having killed her*"(O, onu öldürdüyü üçün İrisi mərhəmətlə bağışlayaraq öldü) [3; s.261]. Burada istehza xarakterin sözlərini təkrarlamaq texnikasından istifadə etməklə qurulur (bu nümunədə fikirlərin təkrarı ilə). Bundan əlavə təhkiyəçi oxucuları obraz və konfliktlər haqqında öz fikirlərini bölüşməyə dəvət etməklə ironiya üçün kontekst yaradır. Təhkiyəçi hekayənin uydurma dünyasını oxucunun real dünyası ilə əlaqələndirir.

"Luiza" hekayəsində istehza məyusluğa əsaslanmışdır. "*He gave up the games he excelled in, because by a coincidence she had a heart attack whenever he proposed to leave her for a day*" (Mükəmməl olduğu oyunlardan imtina etdi, çünki təsadüfən bir gün onu tərk etməyi təklif edəndə infarkt keçirdi) [3; s.258]. Bu parçada müəllif Luizanın insanları necə manipulyasiya etdiyini, hamsını sırf təsadüfə çevirdiyini göstərir. Əri öləndə Luiza öz rolunu oynamağa davam edir: "Luiza kədərli idi, şokdan sağ çıxmağı bacarması isə çox gözəl idi". Müəllif ərinin ölümündən "çətinliklə sağ çıxan", lakin əylənməkdə davam edən Luizanın davranışını istehza ilə təsvir etməyə davam edir: "Növbəti iki-üç il ərzində Luiza ürəyinin zəif olmasına baxmayaraq, gözəl geyinib ortalığa çıxmağı bacardı, ən canlı məclislər, qumar

oynamaq, rəqs etmək və hətta hündürboy, yaraşıqlı gənclərlə vaxt keçirmək belə onun həyatından çıxmadı". Bu misalların hamısında müəllif ironiya yaratmaq üçün sərt mübaliğə və antifrazlardan istifadə edir. Bu hekayədəki istehzanın başqa bir cəhəti ondan ibarətdir ki, təhkiyəçi Luizanın qızının evlənəcəyi təqdirdə tənhalıqdan öləcəyi ilə bağlı sözlərinə inanmayaraq oxucunu buna inandırır və Luiza əslində ölür. Burada istehzalı şərh oxucunun Luizanın bütün xəstəlikləri haqqında yalan danışdığını və özünü xəstəliyə vurmasını başa düşməsi ilə özünü göstərir, baxmayaraq ki, ətrafındakı insanlar bunu başa düşmür, ona səmimi münasibət göstərir, qayğı ilə yanaşırlar.

"A Friend In Need" (Çətin günün dostu) adlı hekayəsində müəllif əvvəlcə Burtonun Lenniyə istehza ilə yanaşdığını və hər şeyi öyrənmək üçün çox vaxt lazım olacağına inandığını göstərir - o, otuz beş yaşında olan Lenniyə yaxınlaşaraq ondan iş istəməsini xahiş edir. O, yaxınlaşdıqda isə daha otuz beş il gözləməsini tövsiyə edir: *"I'm afraid I can't do anything for you just yet. Come back and see me in another thirty-five years and I'll see what I can do*" (Qorxuram ki, sizin üçün hələ heç nə edə bilmərəm. Otuz beş ildən sonra qayıdıb məni gör, görüm nə edə bilərəm) [3; s.579]. Burada ironiya kobud şişirtməyə əsaslanır. Müəllif daha sonra ofisdə boş vakansiya olmadığı üçün adamın ölməsinə icazə verən Burton kimi insanlara öz münasibətini ifadə edir: "*When you made him that offer of a job, did you know he'd be drowned?" – "Well, I hadn't got a vacancy in my office at the moment"*(Ona bu iş təklifi verəndə bilirdiniz ki, o batacaq? " – "Hə, onda ofisimdə vakansiya yox idi) [3; s.580]. Hekayədə Lenni intihardan başqa çıxış yolu görməyib, ona ölümcül bir tapşırıq verən adaşından kömək istəyir, deyə bilərik ki, Lenni sonda intihar etdi, lakin onun bundan xəbəri yox idi. Müəllif burada təhkiyəçini də istezalı vəziyyətə düşürür. Əsərin əvvəlindən sonuna kimi təsvir etdiyi xarakter- Berton rəvayətçinin ona inandığı qədər yaxşı və zərərsiz bir insan deyildi. Bu hekayənin təfərrüatlarını Bertondan öyrənən təhkiyəçi nə qədər səhv etdiyini başa düşür

"Flotsam və Jetsam" hekayəsindəki ironiya nümunələri ilə S. Moem orta təbəqənin acgözlüyünün, ikiüzlülüyünün saxta motivlərini istehza hədəfi kimi müəyyənləşdirir. Bununla müəllif absurd və ya ədalətsiz hesab etdiyi insan davranışlarını, inanclarını ələ salmaq üçün istehzaya müraciət edir [3; s.301]. Axşam yeməyində Qrenc (Grange) Skeltonu arvadı ilə tanış edir, onlar əl sıxır və Qrenc bilmir ki, Skelton və arvadı səhərdən onun yoxluğundan istifadə edərək danışıblar. Bu söhbət zamanı Qrencın həyat yoldaşı Skeltona teatrda aktrisa kimi işini bitirdikdən sonra kasıb olmaqdan qorxduğu üçün onunla evləndiyini söyləyir, nəhayət, o, hələ də kasıb və sevilməyən bir qadın olmaqda davam edir və qırx yaşında yaşlı bir qadına çevrildi. Hekayənin qəhrəmanı, işini itirdikdən sonra yoxsulluqdan və tənhalıqdan xilas olmağa çalışaraq, tanımadığı bir kişi ilə evlənir. Gözləntilərinin əksinə olaraq vəziyyət tam qorxduğu kimi oldu - o, həyat yoldaşı ilə sağ-salamat qaldı və uçuq daxmada yaşamağa məcbur oldu.

"French Joe" (Fransız Cou) hekayəsində müəllif qəhrəmanı və onun dram sevgisini mehribanlıqla ironik şəkildə təsvir edir, başqa bir personaj ölüm yatağında Cuodan edə biləcəyi

bir şeyin olub olmadığını soruşduqda, Cou cavab verir: *"I want nothing, I only want to die. ... But meanwhile I should be grateful for a packet of cigarettes"* (Mən heç nə istəmirəm, sadəcə ölmək istəyirəm. Amma bu arada bir paket siqaretə görə minnətdar ola bilərəm) [3; s.707]. Burada personajın ölümə istehzalı münasibəti öz əksini tapmışdır.

### 3. Postmodernist əsərlərə xas olan istehza

Postmodernist əsərlərə xas olan istehza təbiət etibarilə keçmiş ənənəyə yönəlsə də, sənətkarlıq baxımından real gerçəkliyin üzə çıxarılmasına xidmət edir.

Prof. Qorxmaz Quliyev "Ədəbi proses" kitabında qeyd edirdi ki, "Ənənəyə münasibətdə postmodernizmin istehzadan və gülüşdən geniş şəkildə istifadə etməsi faktını Hatçeonla yanaşı digər tədqiqatçılar da qeyd edirlər. Belə ki, Ronald Uollesin fikrincə, yumor postmodernist poetikanın əsasını təşkil edir. Klassik ədəbiyyatın nümayəndələrindən fərqli olaraq postmodernist yumoristlər dünyanı dəyişdirməyə cəhd göstərmirlər və gülüş vasitəsilə dünyanın absurdluğunu ifşa etməyə çalışırlar" [1; s.89].

Bu baxımdan C. Coysda Uliss, A. Kamüdə Sizif, Markuzedə Orfey, Apdaykda Kentavr obrazlarını xatırlamaq kifayətdir. Homerin "Odisseya" əsərinin mətnini dəyişdirməklə müasir bədii nümunə yaradan C. Coys eposun süjetinin, qəhrəmanlarının, personajlarının, təsvir vasitələrinin istehzadan istifadə etməklə yenidən oxuculara təqdim edir. Onun dünyaya münasibətini iki əsas element rəngləndirir: istehza və komediya və hər ikisi həm daxili aləmində, həm də mətnində böyük qüvvə ilə ifadə olunur. Bu prinsiplərin hər biri onun təzahür və variasiyalarının bütöv bir dairəsi ilə əlaqələndirilir ki, Uliss poetikasında kifayət qədər bulanıq sərhədləri olan iki geniş sahə kimi ironiya sahəsi və komediya sahəsi seçilir. C. Coys zahiri görünüşündən başlayaraq hər şeydə istehzanı əks etdirir. Bu, eyni dərəcədə onun mətninin zahiri görünüşündə - müəllifin ört-basdır etmədən, birbaşa üslubda ifadə etdiyi təsvir və fikirlərdə də özünü göstərir. Bütün hallarda istehza və sarkazm onun roman dünyasındakı bütün hadisələrə və şəxslərə münasibətinə nüfuz edir.

S. Moemin əsərlərinə diqqətlə fikir verdikdə burada da postmodernist əsərlərdə olduğu kimi mövcud durumun olduğu kimi qəbul edilməsini istehza vasitəsilə təcəssüm etdirdiyini görə bilərik. "The Colonel's Lady" (Polkovnik xanımı) hekayəsində müəllif personajlardan birini ironik şəkildə təsvir edir, bu təsvir vasitəsilə o, dövrün standartlarına münasibətini göstərir: "*He was a tall, robust fellow, with a boisterous manner and a jovial laugh, which suggested that he liked to be looked upon essentially as a sportsman and a good fellow and only incidentally as a lawyer"* (O, ucaboylu, sağlam bədənli adam idi, səs-küylü davranışı və şən gülüşü ilə ətrafdakıların ona, əsasən, bir idmançı və yaxşı dost kimi baxması ona ləzzət edirdi və təsadüfi hallarda bir hüquqşünas kimi görünmək istəyirdi) [3; s.406].

**Nəticə.** Somerset Moemin yaradıcılığında istehza total xarakterə malikdir. Müəllifin əsərlərinin ilk cümləsindən onun istehzası açıq şəkildə özünü büruzə verir. Bu vasitə posmodernist əsərlərinə xas olan xüsusiyyət hesab olunsa da, göründüyü kimi XX əsrin əvvəllərində İngilis ədəbi-bədii nümunələrində özünü büruzə verir.

Beləliklə, əsərlərin təhlilindən belə bir nəticəyə gəlmək olar ki, postmodernist ədəbiyyat üçün səciyyəvi olan total istehza artıq S. Moemin yaradıcılığında öz əksini tapmışdır.

**Ədəbiyyat**

1. Quliyev Q.H. (2020), Müasir Ədəbi Proses, Bakı, Mütərcim, 320.
2. Singh R.K. (2012), Humour, irony and satire in literature. International Journal of English and Literature, No.3, 65-72.
3. Maugham W.S. (1976), Sixty-Five Short Stories. London: William Heinemann Limited & Octopus Books Limited, 937.
4. Зольгер К.В.Ф. (1978), Эрвин. Четыре диалога о прекрасном и об искусстве, 432.
5. Осиновская И.А. (2007), Ирония и Эрос. Поэтика образного поля. Москва: Памятники исторической мысли, 208.